# Yardımlı sürətli inkişaf yolundadır



***❒ Dağların qoynunda qərar tutmuş Yardımlının xoş soraqları fərəh doğurur. Bəzi özəllikləri dəyişməz qalsa da, bu "dağlar gözəli" daha əvvəlki gözdən-könüldən uzaq olan ucqar bölgə sayılmır. Hüsnünə yeni-yeni naxışlar vurulur, əhalisinin güzəranı da get-gedə yaxşılaşır.***

Hər dəfə Yardımlıya gələndə könlümü bir qartal vüqarı sarır. Bu dəfə də o qayım-qədim diyara həvəslə qanadlandım. Başından dumanı əskik olmayan dağlar, bulaqları nəğmə oxuyan dərələr, sıx ormanlar, işıqlı talalar, geniş ənginliklər doğma Azərbaycanımızın misilsiz gözəlliklərinə vurğunluğumu daha da artırdı. Bu yerlərə də sosial-iqtisadi inkişaf uğurlu qədəmlərini qoyub.

...Rayon icra hakimiyyətində mənə dedilər ki, başçı Ayaz Əsgərov Daşkəndə gedib, bir-iki saata qayıdar. Əvvəl çaşdım, yəni burdan Özbəkistana o uzunluqda yol hara, bir-iki saata qayıtmaq hara?! Sonra xatırladım ki, söhbət Yardımlının Daşkənd kəndindən gedir.

Vaxtı boş keçirməyim deyə, mən də Yuri Qaqarinin adının ehtiramla xatırlandığı Pirembel kəndinə, şair dostum Seyyid Süleymanın ziyarətinə yollandım. Səmavi eşqlə tanınan seyyidlər məkanı Pirembel kəndini 55 il bundan əvvəl xaraba qalmaqdan sakinlərinin duaları və bir də… Sovet İttifaqının ilk kosmonavtı Yuri Qaqarin (!) qurtarıb. Məlum olduğu kimi, Pirembel də bir çox digər sərhəd yaşayış məskənləri kimi, sovetlərin dövründə acınacaqlı həyat keçirib. Sərhədyanı zonada (İranla) yerləşməsi ilə əlaqədar 1953-cü ildə Pirembelin bir yaşayış məskəni kimi ləğvi və orada yaşayanların isə Kür-Araz boyunca, hətta, Qəbələ-Oğuza qədər deportasiya olunması qərarı öz işini görüb. Hamısı qohum-əqraba olan kənd camaatı səpələnib çöllərə. Bundan illər sonra dünyada ilk kosmonavt kimi tarixə düşmüş Yuri Qaqarinlə görüş keçirilməli idi. Pirembelin ağsaqqalları tədbir tökürlər ki, bu fürsətdən istifadə edərək, ondan kəndin yenidən bərpasına kömək istəsinlər. Həm də artıq Stalin rejimi süquta uğramışdı. Xruşşov Stalinin əmrlərini ləğv edirdi. Bununla bağlı Mir Məcid ağanın məsləhəti və Moskvaya ərizəsi kənd camaatının köməyinə çatır. Ərizə Yuri Qaqarinlə görüşdə Mir Ağabəy tərəfindən, gül dəstəsinin arasında kosmonavta verilir. Xoşbəxtlikdən, Y. Qaqarini ona ünvanlanmış məktubun məzmunu çox maraqlandırır və istənilən köməkliyi əsirgəmir. Beləliklə, 1963-cü ildə Pirembel camaatı ulu yurda qayıtmaq imkanı əldə edir...

Rahat asfalt yolla güzarım uzun çəkmədi. Bir də gördüm ki, zirvəsi buluddan nəm çəkən dağların ağuşunda, Pirembelin ortasında göz oxşayan Göznarı bulağının başındayam. Bulaq – nə bulaq! Mozaik rəsmlərlə bəzədilmiş novunun üç axar gözü var, suyu da ki, diş göynədir. Süleyman müəllim sorağımı eşidərək burayacan düşüb gəlmişdi.

– Niyə zəhmət çəkirsən? – dedim.
– Gəlirdim də.

Təmkinini pozmadan iki misra şeirlə cavab verdi:

***– Tarixin izində nurlu yaddaşam,***
***Sayana ayağam, saymaza başam.***

Daha bir söz demədim. Mehribancasına görüşüb hal-əhval tutduq. Seyyid Süleyman Vaxtilə Bakı Dövlət Universitetində mənə "Üslubiyyat" fənnindən dərs demiş mərhum filoloq Kamil Əliyevin qardaşıdır. Kənd məktəbində ədəbiyyatı tədris edir. Özü də arabir həzin duyğularını şeirə çevirir. Yenicə çapdan çıxmış "Harayladım, qayıtmadı o illər" adlı kitabından birini də mənə bağışladı. İşıqlı bir ocağın közü olan şairlə onun həyətində, çay süfrəsi arxasında könül söhbətlərimiz oldu, yadigar şəkillər çəkdirdik. Sonra asfalt yolla geriyə - rayon mərkəzinə qayıtdım...





Yeri gəlmişkən, yollar haqqında. Yardımlının yolları daim abadlaşır, yolların qolları da sağa-sola şaxələnir. Yol varsa, hərəkət var, hərəkət varsa, bərəkət var. Məlum olduğu kimi, 2006-cı ildə Azərbaycan Prezidenti cənab İlham Əliyevin xeyir-duasıyla 53 kilometrlik Masallı-Yardımlı yolu açılıb. Sonra rayonun yol infrastrukturu yenilənməyə başlayıb. Uzaq Arvana kəndinə qədər təzə yollar salınıb. Ötən ilin payızında dövlət başçısının sərəncamına əsasən dağlara aparan daha bir yolun, Cəlilabad-Yardımlı avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı "Azəravtoyol" ASC tərəfindən aparılan yenidənqurma işləri geniş vüsət alıb. Yolun ümumi uzunluğu 72 kilometrdir, bunun 51 kilometri Cəlilabad rayonunun, 21 kilometri isə Yardımlı rayonunun ərazisindən keçir. Yenidənqurma 59 yaşayış məntəqəsindən 60 mindən çox əhalinin gediş-gəlişini xeyli asanlaşdıracaq, yük daşınması daha da sərfəli olacaq.

Əhalisinn sayı 20 min nəfər, uzunluğu 22 kilometr olan və 15 yaşayış məntəqəsini birləşdirən Sırıq-Vərgədüz-Bilnə-Osnağaran yerli əhəmiyyətli avtomobil yolunun da əsaslı tikintisinə start verilib. Eyni zamanda əhalisinin sayı 3 min 500 nəfər, uzunluğu 17 kilometr olan və 7 yaşayış məntəqəsini birləşdirən Sırıq-Əfçədulan- Əngövül-Zəngələ-Keçələkəran yerli əhəmiyyətli avtomobil yolunun tikintisi üçün ilkin layihə hazırlanıb və yolun sxemi müvafiq qurumlara göndərilib. Yardımlı şəhərindəki Heydər Əliyev küçəsində təmir işləri yekunlaşıb. Rayon icra hakimiyyəti başçısının ötən ilin yekunlarına həsr olunmuş hesabatı zamanı sakinlər tərəfindən 4 kilometrlik Alçabulaq-Odrağaran dairəvi avtomobil yolunun təmir olunması barədə məsələ qaldırılmışdı. Müraciəti nəzərə alınıb və iyun ayı ərzində yol tamamilə çınqıl örtüklə təmir olunaraq əhalinin istifadəsinə verilib...

Həmin gün rayon rəhbəri Ayaz Əsgərov Daşkənd kəndində yeni zastavanın açılışında iştirak etdikdən sonra başqa bir kəndə yollandığı üçün onunla görüşə bilmədim. Amma söhbət etdiyim hər kəs Yardımlıya dövlət qayğısından, burada həyatın daha da yaxşılaşdığından həvəslə danışdı. Dedilər ki, möhtərəm Prezidentimizin şəxsi nümunəsində əhali ilə görüşlərə önəm verilməsi rəhbər işçiyə yalnız başucalığı gətirir. Bizim rayonun rəhbərliyi də bu əsasda fəaliyyət mexanizminin əsas konturlarını müəyyənləşdirmək üçün kəndlərdə keçirilən görüşlərdən, səyyar qəbullardan faydalana bilir. Bu mənada Ayaz müəllimlə görüşlər əsl işgüzar səciyyəli olur. O, yalnız gücü çatanı vəd edir və yerinə yetirilməsinə çalışır. Bir vaxtlar geridə qalmış, ucqar ərazidə yerləşən Yardımlının problemlərinə doğma münasibət bəsləyir. Ona görə də bir kəndə ikinci, hətta üçüncü dəfə də, necə deyərlər, ürəkli gedir.

On ildən bəri şəhər statusu almış rayon mərkəzində abadlıq tədbirlərinə ara verilmir. Ötən aylarda Vüqar Nəciyev küçəsində 600 metr məsafədə küçə işıqları quraşdırılıb. Şəhərdəki 9 çoxmənzilli yaşayış binasının dam örtüyü dəyişdirilib, yararsız vəziyyətdə olan pilləkənlər dəmir-beton və taxta pillələrlə yeniləndirilib, fasad divarlarında, eləcə də daxili divarlarda suvaq və rəngləmə işləri aparılıb, plastik qapı və pəncərələr qoyulub, həyətyanı sahə çınqıl örtüklə döşənib, binaların ətrafında mişar daşından və dəmir-beton konstruksiyadan ibarət istinad divarları tikilib. Artıq binaların həyətyanı ərazisi asfaltlaşdırılır.

Əhalinin içməli suya olan tələbatının ödənilməsi də daim gündəmdədir. Yardımlı şəhərinə su və kanalizasiya xətlərinin çəkilişi davam edir. Artıq mərkəzi küçələrdə bu iş yekunlaşır. Yaxın vaxtlarda hər iki xəttin- su və kanalizasiya xəttinin tam istifadəyə verilməsi nəzərdə tutulur. Sineyir-Separadi magistral su xətti isə Yolocaq kəndinə qədər çəkilmişdir. Hazırda 9 yaşayış məntəqəsindən 6 min 500 nəfərlik əhali bu sudan istifadə edir. Yolocağın mərkəzində su anbarı tikilməklə həmin xətt Separadi kəndini də daha asan yolla içməli su ilə təmin edəcək. Ölkə Prezidentinin sərəncamı ilə, əhalisinin sayı 700 nəfər olan Arvana kəndində artezian quyusu qazılıb və istifadəyə verilib. Ərus və Alçabulaq kəndlərində də belə quyuların qazılması planlaşdırılıb.

Prezident sərəncamına əsasən, abonentlərin sayı 80, əhalisinin sayı 800 nəfər olan Gavran kəndinin qazlaşdırılması məqsədilə də vəsait ayrılıb, artıq xəttin çəkilişi üçün rayona zəruri material gətirilir. Bundan sonra isə mərhələli şəkildə Ostayir, Dəlləkli, Çayüzü, Nisəqala, Şəfəqli, Osnağaran, Anzov, Hamarkənd, Abbasabad və Horavar kəndləri qazlaşdırılacaq. Başqa bir sərəncamla Şıxlar kəndində 80 şagird yerlik, Bilnə və Avun kəndlərində 56 şagird yerlik modul tipli məktəblərin inşasına vəsait ayrılıb, yaxın vaxtlarda tikinti işlərinə başlanacaq.

Yardımlıda elektrik təsərrüfatının dayanıqlığının təmin edilməsi məqsədilə tədbirlər görülür, xətlərdə mühüm təmir işləri aparılır. Ostayir və Dəlləkli kəndlərində SİP kabelləşmə işlərinə başlanıb. Yaxın aylarda isə Yeni Yardımlı yarımstansiyasından qidalanan 5 saylı yüksək gərginlik xəttində - Sırıq, Alçabulaq, Odrağaran kənd yaşayış məntəqələrində SİP kabelləşmə işlərinə start veriləcək.

Telefon rabitəsinin yaxşılaşdırılması da diqqətdədir. Sakinlərin müraciəti nəzərə alınaraq, Bərcan, Şıxlar və Telavar kəndləri arasında 6 kilometr məsafədə optik kabel xətti çəkilib. Amma hələ də telefonlaşmamış 14 kənd var, bir neçə yaşayış məntəqəsində isə yeni EATS-lər quraşdırılmalıdır.

İlin əvvəlindən Yardımlıda 33 milyon 640 min manatlıq ümumi məhsul istehsal olunub ki, bu da ötən ilin müvafiq dövründəkindən 22 faiz çoxdur. Bunun 467 min 700 manatlığı sənaye, 11 milyon 130 min manatlığı kənd təsərrüfatı məhsulları istehsalına aiddir. Adambaşına düşən məhsul istehsalı 506,2 manatdır. Rayon üzrə orta aylıq əməkhaqqı 303,3 manata çatıb. Qeydiyyata alınmış sahibkarlıq subyektlərinin sayı 5 min 574 nəfərdir ki, onlarınn da 5 min 131-i fiziki, 443-ü isə hüquqi şəxslərdir. Rayon rəhbərliyi tərəfindən sahibkarlara lazımi dəstək göstərilməsinin nəticəsidir ki, məşğul əhalinin sayı ilbəil artır.

Yardımlı əsasən aqrar rayon olduğundan burda məhsul bolluğu uğrunda yürüş ilboyu səngimir. 2017-ci ilin payızında 2018-ci ilin məhsulu üçün 3 min 418 hektar sahədə payızlıq taxıl bitkiləri - 3 min 183 hektar sahədə payızlıq buğda, 148 hektarda payızlıq arpa, 87 hektarda isə vələmir əkilib. Eləcə də 1747,25 hektar sahədə yazlıq əkini aparılıb ki, bunun da 642 hektarı dənli paxlalılar, 868,4 hektarı kartof, 50,6 hektarı tütün, 186,25 hektarı isə müxtəlif növ tərəvəz bitkiləridir. Son vaxtlar istehsalçılar sarımsaq əkininə də maraq göstərirlər və onlar tərəfindən 32,5 hektar sahədə sarımsaq əkilib. Bundan başqa, cari ildə 50,6 hektar sualtı sahədə "Verçiniya" növü olan tütün əkini aparılıb. Rayon rəhbərliyi tərəfindən əkinçilərə əvəzsiz olaraq toxum paylanıb. Artıq, şitillər sahələrə köçürülüb.

Rayonda əkin sahələrinin artması səbəbindən kənd təsərrüfatı təmayüllü texnikaya tələbat da yüksəlib. Rayon üzrə 38 ədəd saz vəziyyətdə olan şum traktoru, "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin, Cəlilabad Regional Nümayəndəliyinin Masallı bölməsinin 5 ədəd taxılbiçən kombaynı çalışır. Şum traktorlarının 21-i, taxılbiçən kombaynın isə 2-si lizinq yolu ilə alınmış yeni texnikalardır. Cari ildə 5 min 165,2 hektar sahədə ümumi əkin aparılıb, vaxtında ziyanvericilərə qarşı mübarizə tədbirləri görülüb və bu da məhsuldarlığın artmasına səbəb olub.

Göründüyü kimi, Yardımlı sürətli inkişaf yolundadır. Dağlar diyarının yurdsevər və zəhmətkeş camaatına nikbin ruh hakimdir.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***



